UOT 81

*E.Ç.Həsənov*
*Gəncə Dövlət Universiteti*
*Gəncə ş., H.Əliyev pr., 429*
*E-mail: shuseynova@mail.ru*

# TÜRKİYƏNİN CƏNUBİ QAFQAZIN TƏHLÜKƏSİZLİK TƏMİNATINDA HƏRBİ ƏMƏKDAŞLIĞININ ROLU

*Türkiyə Cənubi Qafqaz dövlətləri ilə siyasi və iqtisadi əməkdaşlıqla bərabər, hərbi sahədə də əlaqələrin qurulmasına böyük əhəmiyyət vermişdir. Türkiyənin Cənubi Qafqazda sabitliyin qorunmasında bölgə dövlətlərinin ordu quruculuğuna verdiyi əhəmiyyətli dəstəyin böyük rolu vardır.*

*Azərbaycan və Gürcüstan Respublikası NATO-nun ən güclü ordularından birinə malik Türkiyə ilə həm NATO, həm də ikitərəfli hərbi əlaqələri inkişaf etdirir. NATO ilə əlaqələrin əhəmiyyəti Türkiyə üçün də mühüm xarici və təhlükəsizlik siyasəti ölçüsüdür. Türkiyə Mərkəzi Asiya və Qafqaz dövlətlərinin "Avroatlantik Əməkdaşlıq Şurası"nda və "Sülh Naminə Tərəfdaşlıq Proqramı"nda iştirakını və fəaliyyətini dəstəkləyir.*

*Türkiyə-Azərbaycan-Gürcüstanın müxtəlif sahələrdə, eləcə də təhlükəsizlik sahəsində milli maraqlarının üst-üstə düşməsi bu siyasi üçlük arasında əlaqələrin möhkəmlənməsində və daha da inkişaf etdirilməsində mühüm rol oynayır. Türkiyə bu gün də Qafqazın ən mühüm və aktiv geosiyasi aktorlarından biridir və regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə çalışır.*

*Açar sözlər:* Türkiyə, Cənubi Qafqaz, Azərbaycan, Gürcüstan, təhlükəsizlik təminatı, hərbi əməkdaşlıq

Türkiyə Cənubi Qafqaz dövlətləri ilə siyasi və iqtisadi əməkdaşlıqla bərabər, hərbi sahədə də əlaqələrin qurulmasına böyük əhəmiyyət vermişdir. Türkiyənin Cənubi Qafqazda sabitliyin qorunmasında bölgə dövlətlərinin ordu quruculuğuna verdiyi əhəmiyyətli dəstəyin böyük rolu vardır.

1990-cı illərin ikinci yarısında Rusiya-Gürcüstan münasibətlərində gərginliyin artmasına paralel olaraq Gürcüstan hökuməti milli ordunun yaradılması üçün kənardan dəstək axtarırdı. Ankara Gürcüstanın Rusiyanın hərbi təsir dairəsindən çıxarılması və Tiflisdə sabitliyi təmin etmək üçün siyasi qarşıdurmalarda iştirak etməyən tərəfsiz ordunun yaradılmasında Tbilisiyə dəstək vermişdi. Bu baxımdan Türkiyə Gürcüstanla 4 aprel 1996-cı ildə "Hərbi Əməkdaşlıq Sazişi", 14 iyul 1997-ci ildə isə "Hərbi Təlim üzrə Əməkdaşlıq Sazişi" imzalanmışdır. Bu sazişlərə uyğun olaraq Türkiyə Gürcüstan Silahlı Qüvvələrini NATO standartlarına uyğunlaşdırmağı öz üzərinə götürmüşdür [8, s. 432].

2001-ci ilin mart ayında Gürcüstanın Marneuli bölgəsindəki hərbi hava limanının Türkiyə tərəfindən təmir edilməsi, Gürcüstan Silahlı Qüvvələrində türk zabitlərinin təlim proqramlarını həyata keçirməsi, Türkiyənin Gürcüstana etdiyi hərbi yardımlar iki ölkə arasında hərbi əməkdaşlığın daha da inkişafını təmin etmişdir. Razılaşma nəticəsində Türkiyə Silahlı Qüvvələrinin bir qrup mütəxəssis zabiti gürcü hərbi mütəxəssislərin hazırlanması üçün Marneuli Hərbi Hava Limanında fəaliyyət göstərəcək, eyni zamanda, hava limanı Türkiyə və digər NATO üzvlərinin hərbi təyyarələrini qəbul edə biləcək səviyyəyə gətiriləcəkdi [10, s. 98]. Türkiyə Cənubi Qafqazda siyasi və iqtisadi əməkdaşlıqla bərabər, hərbi sahədə də Azərbaycanla əlaqələrin qurulmasına böyük əhəmiyyət vermişdir.

Azərbaycan Respublikası NATO-nun ən güclü ordularından birinə malik Türkiyə ilə həm NATO, həm də ikitərəfli hərbi əlaqələri inkişaf etdirir. NATO ilə əlaqələrin əhəmiyyəti Türkiyə üçün də mühüm xarici və təhlükəsizlik siyasəti ölçüsüdür. Türkiyə Mərkəzi Asiya və Qafqaz dövlətlərinin "Avroatlantik Əməkdaşlıq Şurası"nda və "Sülh Naminə Tərəfdaşlıq Proqramı"nda iştirakını və fəaliyyətini dəstəkləyir [11].

İki ölkənin müxtəlif sahələrdə, eləcə də təhlükəsizlik sahəsində milli maraqlarının üst-üstə düşməsi Azərbaycan ilə Türkiyə arasında əlaqələrin möhkəmlənməsində və daha da inkişaf etdirilməsində mühüm rol oynayır. Türkiyə bu gün də Qafqazın ən mühüm və aktiv geosiyasi aktorlarından biridir və regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə çalışır. Həmçinin Azərbaycan Türkiyənin Qafqazda təbii müttəfiqidir. Azərbaycan-Türkiyə münasibətləri, Türkiyə-Gürcüstan münasibətləri üçün zəruri olan iqtisadi və hərbi-siyasi ölçülərlə yanaşı, ortaq dil, din, mədəni dəyərlər və bu kimi amillər də Azərbaycan-Türkiyə münasibətlərində olduqca böyük rol oynayır və əlaqələrin daha möhkəm təməllər üzərində qurulmasına imkan yaradır [9, s.106].

Azərbaycan və Türkiyə arasında hərbi sahədə əməkdaşlıq təkcə Azərbaycan Silahlı Qüvvələrinin güclənməsi deyil, həm də regionda sülh və təhlükəsizliyin bərqərar olması baxımından böyük əhəmiyyət kəsb edir. İki qardaş ölkə arasında ikitərəfli hərbi əməkdaşlığın inkişafına dair imzalanmış müqavilələrə uyğun olaraq, Türkiyə müdafiə sənayesinin inkişafı və hərbi ekspertlərin hazırlanmasında Azərbaycana yardım edir [1, s. 5].

Azərbaycan və Türkiyə arasında müxtəlif dövrlərdə imzalanmış hərbi müqavilələr içərisində "Türkiyə Jandarma Komandanlığı tərəfindən Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyətinin təlim və avadanlıq dəstəyinə dair Protokol", "Türkiyə Respublikası Silahlı Qüvvələri Baş Qərargahı tərəfindən Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə maliyyə yardımı göstərilməsi haqqında Protokol", "Azərbaycan Silahlı Qüvvələrinə qarşılıqsız hərbi yardımın göstərilməsi haqqında" Sazişlər, "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Hərbi Birliklərinin Təlim Məktəblərinin yaradılması haqqında Protokol", "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargahı arasında Naxçıvandakı 5-ci Ordunun inkişafı haqqında Protokol"un əhəmiyyəti böyükdür [6].

İmzalanan sənədlər iki ölkə arasında hərbi əməkdaşlığın hüquqi əsasını təşkil etmiş, iki ölkə arasında imzalanmış hərbi əməkdaşlıq müqavilələrinə əsasən, Türkiyə Silahlı Qüvvələri Azərbaycanın NATO-ya inteqrasiyasını asanlaşdırmaq məqsədilə təhsil müəssisələrində məsləhət və təlim xidmətləri göstərmişdir. Bunlardan əlavə, TSQ Azərbaycan ordusunda təhsil sisteminin qurulmasında və təlim üçün lazımi avadanlıqla təmin olunmasında da köməklik göstərir. Azərbaycan zabitləri Türkiyənin müxtəlif hərbi liseylərində, məktəb və akademiyalarında təhsil alırlar **[**1, s. 5].

1997-ci ilin yanvarında Azərbaycan Silahlı Qüvvələrinin tərkibində Sülhməramlı Qüvvələr briqadası yaradılmışdır. 1999-cu il oktyabrın 20-də Azərbaycan Respublikası hökuməti ilə Türkiyə Respublikası hökuməti arasında Türk Sülhməramlı Taboru tərkibində Kosovoya gedəcək Azərbaycan Sülhməramlı Qüvvələrinin bölməsinin statusu haqqında Saziş Azərbaycan Parlamentində təsdiq edildikdən sonra, bir qrup Azərbaycan Sülhməramlı Qüvvələrinin bir qrup hərbçiləri Kosovada sülyaratma əməliyyatlarına qoşulmuşlar [1, s. 6].

Türkiyənin köməyi ilə Azərbaycan Ali Hərbi Məktəbi NATO standartları əsasında qurulmuş, 2001-ci ilin avqustunda bu məktəb NATO standartlarına tam uyğun təlim keçmiş ilk məzunlarını buraxmışdır. Azərbaycanın Ümummilli lideri Heydər Əliyev buraxılış mərsimində iştirak etmək üçün Azərbaycanda səfərdə olan Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Hüseyn Kıvrıkoğlu ilə görüşü zamanı iki ölkə arasında qardaşlıq və strateji əməkdaşlığın gündən-günə gücləndiyini, xüsusən də iki ölkə arasında hərbi əlaqələrin

səviyyəsinin yüksəldiyini vurğulamış və qeyd etmişdir ki, “Azərbaycan ordusunun yaradılması, təlimi və modernləşdirilməsində Türkiyə Silahlı Qüvvələrinin rolunu çox mühüm hesab edirik və hesab edirik ki, bu istiqamətdə səylər artırılmalıdır” [4].

Azərbaycan və Türkiyənin yüksək səviyyəli hərbi rəsmilərinin qarşılıqlı səfərləri də iki ölkə arasında hərbi əlaqələrin inkişafına mühüm töhfə vermişdir. 2005-ci ildə Türkiyə Respublikasının Müdafiə Naziri Vecdi Gönülün Azərbaycana səfəri bu kontekstdə böyük əhəmiyyət kəsb etmişdir. O, səfər zamanı “Bizim ordumuz sizin ordunuz, sizin ordunuz da bizim ordumuzdur” ifadəsini işlədərək Türkiyənin Azərbaycan Silahlı Qüvvələrinə dəstəyinin daha da artacağını bəyan etmişdir [1, s. 7].

Həmin səfər zamanı Vecdi Gönül Azərbaycan Prezidenti İlham Əliyevlə də görüşmüşdür. Görüşdə İlham Əliyev Türkiyənin hər sahədə olduğu kimi Azərbaycana hərbi yardımının da ölkənin inkişafı üçün böyük əhəmiyyət kəsb etdiyini vurğulamış və qeyd etmişdir ki, Azərbaycanın müstəqilliyinin ilk illərində faktiki olaraq nizami ordusu olmadığından ordunun formalaşmasında, təlim-tərbiyəsi, texniki təchizatı və bu kimi məsələlərdə böyük çətinliklərlə üzləşmişdir. Bu görüşdə İlham Əliyev vurğulamışdır ki, bütün bu çətinliklərin öhdəsindən gəlmək üçün Türkiyəli hərbi ekspertlərin böyük rolu olmuşdur [3].

Azərbaycanın Müdafiə Naziri Səfər Əbiyevin türkiyəli həmkarı Vecdi Gönülün dəvəti ilə “IDEF 2005” Beynəlxalq Müdafiə Sərgisində iştirak etmək üçün Ankaraya səfəri də ikitərəfli hərbi əlaqələr baxımından əhəmiyyətli olmuşdur. 52 ölkənin iştirakı ilə keçirilən bu sərgidə quru, hava və dəniz müdafiəsi sahələrində ən son texnologiyalar nümayiş etdirilmişdir. Azərbaycanın Müdafiə Naziri Əbiyev səfər çərçivəsində Türkiyə Müdafiə Sənayesinin “Roketsan”, “Maşın və Kimya Sənayesi” və “ASELSAN” tərəfindən istehsal olunan hərbi texnologiya məhsulları ilə yaxından tanış olmuş, Vecdi Gönül və Baş Qərargah rəisi ordu generalı Hilmi Özkök ilə görüşlər keçirmişdir [2].

2008-ci il iyulun 7-də Türkiyə Müdafiə Nazirliyinin müdafiə sənayesi müşaviri Murat Bayarın rəhbərlik etdiyi yüksək səviyyəli nümayəndə heyətinin Azərbaycana səfəri zamanı Türkiyə ilə Azərbaycan arasında sənaye, hərbi texnologiya və müdafiə sahəsində əməkdaşlığın inkişafı ilə bağlı müzakirələr aparılmış, hərbi-sənaye sahəsində əməkdaşlığın inkişafı məsələləri nəzərdən keçirilmişdir [5].

Türkiyənin Cənubi Qafqaz ölkələri ilə ikitərfli hərbi-siyasi əlaqələri ilə bərabər çoxtərəfli əməkdaşlığı da genişlənməkdədir.

Türkiyə-Azərbaycan-Gürcüstanın bir çox enerji və logistika infrastruktur layihələrindəki tərəfdaşlığı 2019-cu ildə hərbi sahədə bəzi birgə addımların atılmasında mühüm rol oynamışdır. Sentyabrda Azərbaycanın paytaxtı Bakıda Türkiyə, Azərbaycan və Gürcüstanın iştirakı ilə komanda qərargah təlimi keçirilmişdir. Təlim çərçivəsində Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum təbii qaz kəməri və Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin təhlükəsizliyinin təmin edilməsi və mümkün terror təhlükələrinin qarşısının alınması məqsədilə kompüterlər vasitəsilə zəruri tədbirlər həyata keçirilmişdir. “Eternity 2019” adlanan təlim dörd gün davam etmişdir. Elə həmin ay Türkiyə, Azərbaycan və Gürcüstanın xüsusi təyinatlı qüvvələri Azərbaycanın paytaxtı Bakıda “Qafqaz Qartalı-2019” birgə hərbi təlimini həyata keçirmişlər [7].

Türkiyənin Cənubi Qafqaz siyasətində təhlükəsizliyin təmin olunmasında yaşadığı ciddi problemlərdən öndə gələni bu bölgədə mövcud olan etnik münaqişələrdir. Bölgədəki mövcud problemləri təhlil edərkən bu qənaətə gəlmək olar ki, beynəlxalq sülh və təhlükəsizliyi təhdid edən ən mühüm problemlər Cənubi Osetiya, Abxaziya və Dağlıq Qarabağda olan münaqişə ocaqlarıdır.

Türkiyənin Cənubi Qafqazda mövcud olan münaqişə ocaqlarına ümumi siyasi baxışı əsasən dövlətlərin ərazi bütövlüyünün qorunması və münaqişələrin beynəlxalq hüquq

normaları çərçivəsində həll olunması olmuşdur.

Bu baxımdan Türkiyə istər beynəlxalq və regional təşkilatlar səviyyəsində, istərsə də ikitərəfli münasibətlər formatında Gürcüstanın ərazi bütövlüyünü tanımış, Rusiyanın Gürcüstanla təxminən on günlük müharibədən sonra 2008-ci ildə Abxaziya və Cənubi Osetiyanı işğal etməsinə qarşı çıxmışdır. Türkiyənin bu istiqamətdə tutduğu mövqe iki ölkə arasındakı müsbət münasibətlərə ciddi təsir göstərmişdir [12, s. 554].

2020-ci ildə Türkiyənin region dövlətləri ilə münasibətlərinə nəzər saldıqda görünür ki, Cənubi Qafqazda diqqəti çəkən məsələlər 12 iyul Tovuz münaqişəsi, daha sonra 27 sentyabr-10 noyabr tarixlərində baş verən İkinci Qarabağ müharibəsidir. Bu münaqişə zamanı Tiflis administrasiyası münaqişə subyekti olmasa da onun münaqişə prosesində rolu, Gürcüstanın Türkiyənin enerji təchizatı təhlükəsizliyində və Qafqaz geosiyasətində yeri, II Qarabağ müharibəsi zamanı yeritdiyi siyasət, Türkiyənin regionda baş verən proseslərdə olduqca əhəmiyyət kəsb edirdi [12, s. 556].

İlk növbədə Tovuz döyüşləri regionda siyasi tarazlığın və geosiyasi qırılma xətlərinin pozulmasına səbəb oldu. Çünki Tovuz rayonu Azərbaycanın bütün enerji və logistika xətlərinin Gürcüstandan keçdiyi, Türkiyə və Avropaya açıq olduğu strateji ərazidir. Qarabağın cəbhə xəttindən kifayət qədər uzaqda yerləşən bu bölgəni artilleriya ilə hədəfə alan erməni ünsürləri münaqişə sərhədindən uzaqda yerləşən mülki yaşayış məntəqələrini atəşə tutmaqla, əsasən Azərbaycanı hərbi-siyasi təxribata çəkmək və regionda qeyri-sabit vəziyyət yaratmaq məqsədi güdürdülər.Ermənistanın hərbi-siyasi xuntasının Qarabağ bölgəsində apardığı bu aqressiv və revanşist siyasəti bir tərəfdən Azərbaycana, digər tərəfdən Xəzərin enerji təchizatının təhlükəsizliyində böyük rol oynayan Türkiyəyə böyük bir təhdid idi. Digər tərəfdən bu hadisə tranzit ölkə olan Gürcüstanın iqtisadi maraqlarına və enerji təhlükəsizliyinə tamamilə zidd bir vəziyyət yaratmışdı. Bakı-Tbilisi-Ceyhan (BTC) neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum (BTE) qaz boru kəməri, TANAP boru kəməri və Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu kimi bütün nəqliyyat dəhlizinin bu ölkədən keçməsi Gürcüstanın da bölgədəki geosiyasi vəziyyətinə ciddi təhlükə yaratmaqda idi [12, s. 556].

Cənubi Qafqazda siyasi sabitliyə və geosiyasi balansın pozulmasına səbəb olacaq bu faşist davranışı onun riyakar, Qarabağ münaqişəsində qeyri-konstruktiv mövqeyini ortaya qoymaqla faktiki olaraq Türkiyənin Qafqaz siyasətində dərin qırılmaya səbəb oldu və Türkiyə hakimiyyəti status-kvonu dəyişmək üçün taktiki addımlar atmaq məcburiyyətində qaldı.

Suriya və Liviya bölgəsində həyata keçirilən Türkiyənin proaktiv siyasəti Qarabağ münaqişəsində də presedent kimi qəbul edilmiş və real olaraq mühüm nəticələr vermişdir. İyul ayının sonu və avqustun əvvəllərində iki ölkə hərbi birləşmələrinin Azərbaycanda birgə təlimlər keçirməsi, ardınca Türkiyənin müdafiə sənayesinin istehsalı olan “Bayraktar TB2 SİHA”ların, həmçinin digər sursat, raket və elektron döyüş sistemlərinin Azərbaycana satışı və bu məhsulların İkinci Qarabağ Müharibəsinin əvvəlindən sonuna kimi döyüş əməliyatlarında fəal şəkildə istifadə olunaraq Ermənistan üzərində ciddi üstünlük qazanması Türkiyənin bölgədə aparıcı aktor olmasının əsas göstəricisi iidi. Bundan başqa, Türkiyənin regionun geosiyasətində qazanmağa başladığı rol Gürcüstan tərəfindən yüksək qiymətləndirilmiş, Tbilisi-Ankara münasibətlərinə də müsbət təsir göstərmişdir [12, s. 556].

2020-ci il sentyabrın 27- dən noyabrın 10-na kimi baş vermiş II Qarabağ müharibəsi nəticəsində Azərbaycanın ordusu erməni işğalçılarını ağır məğlubiyyətə uğradaraq Dağlıq Qarabağ bölgəsini və ətraf rayonları düşmən işğalından azad etmiş və bölgədə yeni reallıqlar yaratmışdır. Azərbaycan ordusu döyüş meydanında əldə etdiyi mütləq üstünlük nəticəsində illərdir davam edən status-kvonu sındırmış, psixoloji üstünlüyü ələ keçirmiş, əvvəlcə şimal və şərq cəbhələrindən başlayan, daha sonra diqqəti cənub cəbhəsinə yönəldən müharibədə geostrateji əhəmiyyətə malik Şuşanın azad edilməsindən sonra Azərbaycan işğal altında olan

bütün torpaqlarını azad etmiş və erməni işğalına son qoymuşdur. Ermənistanın acınacaqlı vəziyyətdən xilas etmək üçün Rusiyanın prosesə müdaxiləsi və imzalanan atəşkəs razılaşması ilə Ermənistan ordusu meydanda mütləq məğlubiyyətə bərabər diplomatik müstəvidə də ağır zərbə almışdır. 10 noyabr 2020-ci il Bəyannaməsi Ermənistanın siyasi və hərbi məğlubiyyətini təsdiq edən kapitulyasiya aktı olmuşdur. 10 noyabr Bəyannaməsi ilə Azərbaycan döyüş meydanında əldə etdiyi bütün uğurları diplomatiya masasında (Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli, Şuşa və bu rayonların bir çox yaşayış məntəqələri) qoruyub saxlamış və Kəlbəcər, Laçın, Ağdam rayonlarını da döyüşsüz olaraq geri almışdı.

Ermənistanın imzaladığı kapitulyasi aktını 1994-cü il Bişkek protokolundan sonra yaranmış status-kvo ilə müqayisə etsək, işğal olunmuş torpaqların 80 faizə yaxını azad edilmiş, erməni əsgərləri işğal etdiyi bütün Qarabağ torpaqlarından geri çəkilmək məcburiyyətində qalmışlar. Həmçinin razılaşmada Zəngəzur dəhlizi vasitəsilə Naxçıvan Muxtar Respublikası ilə Azərbaycan arasında nəqliyyat xəttinin açılmasının təsbit olunması mühüm regional nəticələri olan bir hadisə kimi xarakterizə olunmaqdadır. Digər tərəfdən, Dağlıq Qarabağın statusunun danışıqlar masasından götürülməsi Azərbaycanın geosiyasi qələbəsinin ən ümdə məsələlərindən biri olmuşdur [12, s. 557].

Tovuz və İkinci Qarabağ müharibəsindən əvvəl regional siyasətdə daha passiv olan və Qafqaz geosiyasətinin tam olaraq tərkib hissəsi olmayan Türkiyə bir tərəfdən Azərbaycanın qələbəsində oynadığı rola görə, digər tərəfdən müharibədən sonra bölgədə qazandığı təsirini qoruyub saxlamaqla Qafqaz rəqabətində mühüm mövqe qazanmış oldu. Atəşkəsdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müraciəti əsasında Türkiyə Silahlı Qüvvələrinin Ağdamda yaradılan atəşkəs monitorinq mərkəzində iştirak etməsi Türkiyənin mövqeyinin kiçik bir göstəricisi idi. Eyni zamanda, iki ölkə arasında yüksək səviyyəli səfərlər əvvəlki illərlə müqayisədə xeyli artdı. “Bir millət, iki dövlət” anlayışı ilə davam edən ikitərəfli münasibətlərin 2020-ci ildə konkret nəticə verdiyini, “bir millət, bir dövlət” anlayışı inkişaf etməyə başlamışdır [16].

Bundan əlavə, Türkiyənin müdafiə sənayesinin bu qələbədə önə çıxması Türkiyənin regional və hətta qlobal statusunu və təsirini daha da gücləndirdi. Türkiyənin bu yeni statusu xüsusilə də regionda münaqişə mənbəyi daşıyıcısı olan Kiyev və Tiflisdə böyük əks-səda doğurdu. Tbilisi hakimiyyəti Qarabağda baş verənləri və Türkiyənin müdaxiləsi ilə həll olunan münaqişəni örnək kimi görür və bunu öz ölkəsində işğal olunmuş Abxaziya və Cənubi Osetiya bölgələri ilə bir presedent olaraq müqayisə edirlər. Bir sözlə, dondurulmuş Qarabağ münaqişənin başa çatması və təhlükəsizliyin bərpası istiqamətində həyata keçirilən tədbirlər analoji münaqişələri olan bütün dövlətlərin, o cümlədən Gürcüstanın da diqqətini çəkmişdi. Qarabağın işğaldan azad edilməsinin Azərbaycan üçün mənası və əhəmiyyəti ilə sözügedən bölgənin işğaldan azad edilməsinin Gürcüstan hökuməti və xalqı üçün əhəmiyyəti kifayət qədər oxşardır. Bu kontekstdə münaqişənin həlli çərçivəsində Türkiyə və onun hərbi potensialı ön plana çıxdı və Qarabağ qələbəsi isə Tiflis hökumətinə nümunə oldu [12, s. 560].

İkinci Qarabağ savaşının bitməsindən sonra Türkiyənin Gürcüstan üzərindəki yumşaq güc siyasəti artmış, xüsusilə də koronavirusla mübarizə çərçivəsində Türkiyə tərəfindən edilən yardımlar ciddi hörmət qazanmışdır. Hətta Gürcüstanın Xarici İşlər Naziri Türkiyənin COVİD-lə mübarizədə ölkəsinə fövqəladə dərəcədə yardım etdiyini və ikitərəfli münasibətlərin çox yaxşı olduğunu bildirmişdi [14].

Dekabrın 25-də Gürcüstan parlamentinin ölkənin xarici siyasəti ilə bağlı qəbul etdiyi qərarlarda Ankara ilə strateji əməkdaşlığın gücləndirilməsi məsələsinin də yer alması Türkiyənin xüsusilə Qafqaz regionunda sərt və yumşaq gücünü artırmasının konkret təzahürüdür [15].

Türkiyənin Cənubi Qafqazda təhlükəsizlik sisteminin qorunmasında Şuşa Bəyannaməsinin böyük rolu vardır. II Qarabağ savaşından sonra imzalanan Şuşa Bəyannaməsi regional və qlobal təhlükəsizliyin formalaşmasında mühüm zəmin yaratmışdır.

2021-ci ilin iyun ayının 15-də Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşündən sonra "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" imzalandı.

Şuşa Bəyannaməsi 2010- cu il avqustun 16-da imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə"ni bir daha təsdiqi idi. Xüsusi qeyd edək ki, Bəyannamədəki hərbi yardım barədə müddəalar hər iki ölkənin parlamentində təsdiq edilmiş həmin dövlətlərarası müqavilənin hərbi – siyasi və təhlükəsizlik məsələlərinə dair 1-ci, 2-ci və 3-cü maddələrində öz əksini tapmışdır. Maddə 1-də göstərilir ki, tərəflər qonşu və qardaş dövlətlər olaraq bir-birinin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının təmin olunmasında və qorunmasında bir-biri ilə sıx əməkdaşlıq edəcəklər. Tərəflərin hər hansı biri ərazi bütövlüyünün, suverenliyinin və sərhədlərinin toxunulmazlığının təhdid edildiyi və ya təhlükə altında olduğu qənaətində olduqda, Tərəflər bu təhdid və təhlükələrin aradan qaldırılması istiqamətində görülə biləcək tədbirlər barədə təxirəsalınmadan məsləhətləşmələr aparacaqlar [17, s. 1].

Bəyannamənin 2-ci maddədə qeyd olunur ki, "Tərəflərdən biri üçüncü dövlət və ya bir qrup dövlət tərəfindən silahlı basqın və ya hərbi təcavüzə məruz qaldıqda, tərəflər BMT Nizamnaməsinin 51-ci maddəsi ilə tanınan fərdi və ya kollektiv özünü müdafiə hüququnun həyata keçirilməsi üçün hərbi imkan və qüdrətlərindən istifadə etmək də daxil olmaqla, mövcud imkanları çərçivəsində bütün zəruri tədbirlərin görülməsi məqsədi ilə bir-birinə qarşılıqlı yardım göstərəcəkləri barədə razılığa gəlirlər. Bu yardımın forması və həcmi təxirəsalınmadan Tərəflər arasında razılaşdırılacaqdır". Müqavilənin 3- cü maddəsində 2-ci maddə rəhbər tutularaq, "hər iki dövlətin bir-birinə qarşılıqlı yardım göstərməsi üçün səylərin birləşdirilməsi və razılaşdırılmış tədbirlərin icrası məqsədi ilə müdafiə və hərbi-texniki sahədə siyasətlərinin həyata keçirilməsində və silahlı qüvvələri arasındakı əlaqələrin daha da gücləndirilməsində sıx əməkdaşlıq edəcəyi bildirilir" [17, s. 1].

Şuşa Bəyannaməsində eyni zamanda Zəngəzur dəhlizi və Naxçıvan – Qars dəmir yolunun inşasının sürətləndirilməsi yolu ilə iki ölkə arasında nəqliyyat - kommunikasiya əlaqələrinin intensivləşdirilməsi də nəzərdə tutulur. Beləliklə, Şərq-Qərb Mərkəzi Dəhlizinin rəqabət qabiliyyətini artırmaq üçün əməkdaşlıq və Cənub Qaz Dəhlizini həyata keçirmək mümkün olacaqdır.

Ümumiyyətlə, Azərbaycan ilə Türkiyə arasındakı münasibətlərə əhəmiyyətli təkan verəcək Şuşa Bəyannaməsi regional və qlobal təhlükəsizliyə də zəmin yaradır. Bu, həm də Azərbaycanın yeni dünya düzəninə, qlobal geosiyasi sistemə inteqrasiyasının göstəricisidir. Eyni zamanda bu Bəyannamə" ilə Türkiyənin Cənubi Qafqazda siyasi güc tarazlığı yaratdığını və regional güc mərkəzindən qlobal güc mərkəzi yaratmaq istiqamətində mühüm addımlar atdığını deyə bilərik.

## ƏDƏBİYYAT


1. Askerzade A. "NATO Çerçevesinde Azerbaycan-Türkiye Askerî İşbirliği ve Bölgesel Güvenlik Sorunları", Karadeniz Araştırmaları, Sayı: 20, Kış 2009, s.1-17
2. Ayna, 30 sentyabr, 2005.
3. Azərbaycan, 19 iyul, 2005, № 171.
4. Azərbaycan qəzeti, 26 Avqust, 2001, № 217.

5. Azərbaycan və Türkiyə hərbi-texniki və hərbi sənaye sahəsində əməkdaşlığı genişlendirir.”, http://milaz.info/news.php?id=2371.
6. Azərbaycan Respublikasının Türkiyə Respublikası ilə imzaladığı sənədlərin siyahisi. Azerbaycan Cumhuriyeti Dışişleri Bakanlığı Arşivi, Anlaşmalar ve Hukuk Şubesi, 2007.
7. Bakü’de Eternity-2019 Tatbikatı Başladı”, Anadolu Ajansı, 2 Eylül 2019, /Türk dış politikası yıllığı, 2019.
8. Bal İ. 21. Yüzyılda Türk Dış Politikası. Ankara: Nobel Yayın Dağıtım, 2004.
9. Batiaşvili Z. “Теория Хантингтона и Туречко-Кавказские отнашения”, Tsentralnaya Aziya i Kavkaz, 2008, №2 (26), s.103-118
10. Əzimli A. Azərbaycan-NATO Münasibətləri, Bakı, Adiloğlu Nəşriyyatı, 2001
11. Foregin Policy of Turkey. http://www.byegm.gov.tr/references/for-
12. Güler C. Türkiye’nin Rusya ve Kafkasya politikası 2020. /Türk dış politikası yıllığı 2020, SETA, İstanbul, 2021.
13. Kafkas Kartalı Tatbikatı Sürüyor, Anadolu Ajansı, 25 Eylül 2019. /Türk dış politikası yıllığı, 2019.
14. Kachkachishvili D. “Gürcistan Dışişleri Bakanı Zalkaliani: Küresel Salgınla Mücadelede Türkiye Bize Olağanüstü Yardımlarda Bulundu”, Anadolu Ajansı, 29 Aralık 2020, /Türk dış polıtıkası yıllığı 2020, SETA, İstanbul, 2021.
15. Kachkachishvili D. “Gürcistan Türkiye ile Stratejik İş Birliğinin Güçlendiril_mek İstiyor”, Anadolu Ajansı, 25 Aralık 2020, /Türk dış politikası yıllığı 2020, SETA, İstanbul, 2021.
16. Rəhimov İ. “Türkiyə ilə ‘Bir Millət-İki Dövlət’ Formatından ‘Bir Millət-Bir Dövlət’ Formatına Keçməliyik”. 30 yanvar 2021, https://sumqayitxeber.com/ilham-rehimov-turkiye-ile-bir-millet- (Erişim tarixi: 1 fevral 2021).
17. Rəşid L. Şuşa Bəyannaməsi regional və qlobal təhlükəsizliyə zəmin yaradır. /Xalq qəzeti, № 127 (29669) 20 iyun 2021-ci il.

УДК 81

*Э.Ч.Гасанов*
*Гянджинский Государственный Университет*

## РОЛЬ ВОЕННОГО СОТРУДНИЧЕСТВА ТУРЦИИ В БЕЗОПАСНОСТИ НА ЮЖНОМ КАВКАЗЕ

*РЕЗЮМЕ*

*Ключевые слова:* Турция, Южный Кавказ, Азербайджан, Грузия, безопасность, военное сотрудничество

Наряду с политическим и экономическим сотрудничеством Турции с государствами Южного Кавказа большое значение он придавал и налаживанию отношений в военной области. Значительная поддержка Турцией военного строительства региональных государств играет большую роль в поддержании стабильности на Южном Кавказе.

Азербайджан и Республика Грузия развивают как НАТО, так и двусторонние военные отношения с Турцией, которая имеет одну из самых сильных армий в НАТО. Важность отношений с НАТО является важным измерением внешней политики и

политики безопасности для Турции. Турция поддерживает участие и деятельность государств Центральной Азии и Кавказа в Совете евроатлантического сотрудничества и программе «Партнерство ради мира».

Совпадение национальных интересов Турции-Азербайджана-Грузии в различных областях, а также в сфере безопасности играет важную роль в укреплении и дальнейшем развитии отношений между этой политической тройкой. Сегодня Турция является одним из важнейших и активных геополитических акторов на Кавказе и пытается обеспечить мир и безопасность в регионе.

UDC 81

*E.Ch.Hasanov*
*Ganja State University*

ROLE OF TURKEY'S MILITARY COOPERATION
IN THE SAFETY OF SOUTH CAUCASUS
*SUMMARY*

*Key words:* Turkey, South Caucasus, Azerbaijan, Georgia, security, military cooperation

Along with the political and economic cooperation of Turkey with the states of the South Caucasus, he attached great importance to the establishment of relations in the military field. Turkey's significant support for the military development of regional states plays a big role in maintaining stability in the South Caucasus.

Azerbaijan and the Republic of Georgia are developing both NATO and bilateral military relations with Turkey, which has one of the strongest armies in NATO. The importance of relations with NATO is an important foreign and security policy dimension for Turkey. Turkey supports the participation and activities of the states of Central Asia and the Caucasus in the Euro-Atlantic Cooperation Council and the Partnership for Peace program.

The coincidence of the national interests of Turkey-Azerbaijan-Georgia in various fields, as well as in the field of security, plays an important role in strengthening and further developing relations between this political trio. Today, Turkey is one of the most important and active geopolitical actors in the Caucasus and tries to ensure peace and security in the region.

***Daxil oldu: 23.01.2023-cü il***